# Qardaşlıq, birlik və həmrəyliyin qüdrəti



*Aprelin 9-da ADA Universitetində Prezident İlham Əliyevin, 80-dən çox əcnəbi qonağın iştirakı ilə keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum siyasi, iqtisadi və təhlükəsizlik məsələlərinin geniş müzakirə edildiyi mühüm platforma oldu. Forumda Azərbaycanın Türk dövlətləri ilə sıx əlaqəsi, bu dövlətlərə məxsus ortaq təşkilatın əhəmiyyəti vurğulandı. Prezident İlham Əliyev Türk dünyası ilə əlaqələrin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu, bu dövlətlər arasında həmrəyliyin möhkəmləndirilməsinin regional təhlükəsizlik və sosial-iqtisadi tərəqqinin təmin olunmasına mühüm töhfə verdiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Türk Dövlətləri Təşkilatının (TDT) unikallığı onun etnik mənşəyə, ümumi köklərə, ənənələrə, ümumi dəyərlərə əsaslanmasıdır: "İstərdik ki, bu təşkilat daha güclü olsun və nəticələrə köklənsin. Bu baxımdan Azərbaycan hər zaman əlindən gələni edib. O ki qaldı, üzv dövlətlər arasında qarşılıqlı əlaqələrə, bizim aramızda çox yaxşı mühit var".*

Etnik və mədəni köklər, ortaq dil 200 milyondan çox insanın yaşadığı geniş coğrafiyanı əhatə edən Türk dünyası ilə münasibətlərin təməlini təşkil edir. Dövlətimiz Türk dünyasının birliyinin güclənməsinə mühüm töhfələr verib. Mövcud qlobal təhlükəsizlik problemləri, münaqişələr, siyasi və sosial-iqtisadi böhranlar fonunda hər bir dövlətin sabitliyini, rifahını qoruyub saxlaması üçün bir araya gəlməsi, həmrəyliklərini gücləndirməsi və vahid güc kimi çıxış etməsi vacibdir. Bu baxımdan, Türk dünyası ölkələrinin bir təşkilat altında birləşməsi zəruri idi. Məhz bu səbəbdən Türk dövlətləri liderlərinin 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə görüşündə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"i imzalandı və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (indiki adı Türk Dövlətləri Təşkilatı) yaradıldı. TDT 16 il ərzində siyasi, iqtisadi, nəqliyyat, enerji, mədəniyyət, təhsil, səhiyyə, rəqəmsal transformasiya və turizm kimi müxtəlif sahələrdə əməkdaşlıq platformaları yaratmağa müvəffəq olub, ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq müntəzəm və sistemli şəkildə davam etdirilib, zamanla daha da möhkəmləndirilib. TDT ortaq tarixə, dilə, mədəniyyətə və adət-ənənələrə əsaslanır. Ona görə də TDT-yə üzv dövlətlər və xalqlar arasında qardaşlıq münasibətləri mövcuddur.

Hazırda türk dövlətləri arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçməsi üçün münasib şərait mövcuddur. Xəzər dənizi, Qara dəniz və Aralıq dənizini əhatə edən coğrafiyada güclü varlığı ilə geostrategiyanın müəyyənedici elementi olan Türk dünyasının qlobal nizamı XXI əsr türk ideologiyasının tarixi missiyasıdır.

Prezident İlham Əliyev tərəfindən irəli sürülən təklif və təşəbbüslərin həyata keçirilməsi türkdilli ölkələr arasındakı əlaqələrin inkişafına əsaslı töhfə verib. TÜRKPA və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qərargahlarının Bakıda yerləşməsi, 2020-ci il aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın inkişafına yönəlmiş digər məsələlər deyilənlərə bariz nümunələrdir.

Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə əlaqələrinin yüksəlməsində, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində, türkdilli ölkələr arasında inteqrasiya prosesinin geniş vüsət almasında, TDT-nin yeni formatda fəaliyyət göstərməsində xidmətləri böyükdür. Dövlət başçısı ötən il fevralın 14-də keçirilən andiçmə mərasimində demişdir ki, bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır.

Məqsəd qlobal güc mərkəzlərinin regional və milli təhlükəsizliklə bağlı yaratdığı təhdidlərə qarşı ortaq dəyərləri bölüşən dövlətlərin birliyinin yeni geosiyasi şəraitə keçidini təmin etmək, Türk Dövlətləri Təşkilatını təmsil edən ölkələrin mədəni əlaqələri üzərində ümumi maraqlarını inkişaf etdirən siyasi-iqtisadi hədəflərə və regionun geosiyasi problemlərini həll etməyə nail olmaqdır. Bütün bu aspektlər TDT-nin strukturunu və məqsədlərini müəyyən etməklə həm də daha geniş beynəlxalq ictimaiyyətlə qarşılıqlı əlaqəsinə təsir göstərməsini şərtləndirir.

Azərbaycan TDT-ni daha güclü və nəticəyə yönələn təşkilat kimi formalaşmasına təşəbbüs göstərir. Qurum qarşıya qoyulan bütün hədəflərə tez bir zamanda nail olmalı və mühüm qlobal iştirakçıya çevrilməlidir. Bir sıra böyük qlobal gücün təsiri altında olan regionda TDT-yə üzv dövlətlər öz milli maraqlarını daha böyük dövlətlərin maraqları ilə balanslaşdırmaq üçün mürəkkəb geosiyasi situasiya ilə üzləşməli olurlar. Bu baxımdan, TDT-yə üzv dövlətlər üçün yaranan mürəkkəb vəziyyəti yalnız təşkilatın ümumi məqsədlərini ifadə edən geosiyasi arxitektura daxilində həyata keçirmək mümkündür. Bunun üçün təşkilata üzv olan dövlət dialoq və əməkdaşlıq vasitəsilə yüksələn güclərlə əlaqə qurmağa, mövcud güc strukturlarının bu dəyişikliklərə uyğunlaşmasını təmin etməyə, milli maraqları qorumağa, daha fəal olmağa böyük təşəbbüs göstərməlidir. Üzv dövlətlər arasında dialoq və əməkdaşlığı təşviq etməklə yanaşı, qlobal çağırışların həlli istiqamətində dünya miqyasında strateji konsepsiyalar irəli sürməklə beynəlxalq səviyyədə öz rolunu artıran nəticələrə nail olmaq mümkündür. TDT-nin fəaliyyəti ilə bağlı qeyd olunan çərçivələrin müəyyənləşməsi, bir tərəfdən təşkilata üzv dövlətlərin təhlükəsizliyini təmin edəcək, digər tərəfdən təbii resursların maneəsiz dünya bazarlarına çıxışına şərait yaradacaq.

Türk dövlətləri arasında əməkdaşlıq, inteqrasiya, o cümlədən təhlükəsizlik və müdafiə sahəsində qarşılıqlı fəaliyyət heç bir dövlətə və ya birliyə qarşı yönəlməyib. Təşkilatın bütün layihələri regionda və bölgədən kənarda sülhü təşviq etmək, eləcə də sosial-iqtisadi inkişafı artırmağı hədəfləyir. TDT "Türk Dünyası-2040" baxışı ilə əməkdaşlıqların daha da dərinləşməsinin hədəfləndiyi yeni dövrə doğru müvəffəqiyyətlə irəliləyir. Ortaq gücün rəmzi olan bu təşkilat Türk dünyasının siyasi-iqtisadi gücünü daha da artıracaq, qarşılıqlı təcrübə mübadiləsi ilə tərəflər üçün faydalı nəticələrin əldə olunmasına təkan verəcək.

**Bayram SALMANOV,**
**"Respublika".**